

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 182 (21.843)

27 sentyabr 2017-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 26-da NATO baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Appaturayı qəbul edib.

Prezident İlham Əliyev ölkəmizin Əfqanıstanda beynəlxalq sülhməramlı əməliyyatların dəstəklənməsi işinə sadiq olduğunu vurğulayaraq bildirib ki, Azərbaycan təkcə NATO ilə əməkdaşlıq çərçivəsində deyil, eyni zamanda, Əfqanıstanla müxtəlif sahələrdə ikitərəfli əməkdaşlıq, o cümlədən iqtisadi və investisiya sahələrində əlaqələr həyata keçirir.

Görüşdə Azərbaycan-NATO əməkdaşlığından məmnunluq ifadə olunub, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Söhbət zamanı Prezident İlham Əliyev Ermənistan tərəfinin danışıqların imitasiyası ilə məşğul olduğunu deyib və bu prosesin dayandırılması üçün əlindən gələni etdiyini bildirib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 26-da Monteneqro Ali Məhkəməsinin sədri xanım Vesna Medenitsanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



## Muxtar respublikamızın xarici iqtisadi əlaqələri genişlənir

***Xarici iqtisadi əlaqələr bütün dövrlərdə ölkələr üçün əhəmiyyət kəsb edib. Çünki bir ölkənin və yaxud regionun hərtərəfli inkişaf göstəricilərindən biri də digər xarici bölgələrlə yaradılmış iqtisadi-mədəni əlaqələrin səviyyəsidir. Tarixə də fikir versək, görərik ki, uzaq keçmişlərdən müxtəlif xalqlar özlərinə məxsus iqtisadi, elmi və mədəni nailiyyətləri digər dövlətlərlə bölüşərək qarşılıqlı ticarət əlaqələrinin yaradılmasında maraqlı olublar. Müasir dövrdə isə bu cür əlaqələr daha intensiv xarakter alaraq beynəlxalq müstəvidə geniş yayılıb. Bəs xarici iqtisadi əlaqələr ölkələrə nə qazandırır?***

Əvvəlcə onu qeyd etməliyik ki, hazırkı dövrdə istənilən dövlət üçün xarici iqtisadi əlaqələrin qurulması, ilk növbədə, həmin dövlətdən müstəqil siyasət yürüdülməsini tələb edir. Çünki qloballaşmış dünyada hər bir ölkənin beynəlxalq çərçivədə öz maraqları var. Bu maraqların təmin olunması isə o zaman mümkün olur ki, istənilən dövlət öz xalqının milli mənafeyi üçün qəti və müstəqil qərarlar qəbul etməyi bacarsın. Dolayısı ilə, yalnız müstəqil siyasət yürüdən, beynəlxalq əməkdaşlıqda etibarlı tərəfdaşa çevrilə bilən tərəflər bu və ya digər əlaqələrin qurulmasına öz töhfəsini verə bilərlər. Digər tərəfdən bu gün xarici iqtisadi əlaqələrin səviyyəsi ölkələrin iqtisadi gücünün və beynəlxalq aləmdəki nüfuzunun əsas göstəricilərindən biri hesab olunur. Bu nüfuz beynəlxalq arenada bir çox problemlərin həllində mühüm rol oynayır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“Azərbaycanın beynəlxalq nüfuzu, bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı getdikcə artır. Azərbaycan dünyada, beynəlxalq arenada özünü etibarlı tərəfdaş kimi və etibarlı dost kimi təsdiq edə bilmişdir”.***

Başqa prizmadan baxsaq, xarici iqtisadi əlaqələr çox mühüm humanitar və siyasi əhəmiyyətə də malikdir. Belə ki, ölkələr arasında yalnız sıx siyasi dialoq olduqda birbaşa iqtisadi əlaqələr yaranır. Ona görə də xarici iqtisadi əlaqələr dostluq əlaqələrinin nəticəsi kimi, həm də onun möhkəmləndirilməsinin əsas səbəblərindən biridir. Bu gün beynəlxalq aləmdə bir-biri ilə sıx dostluq əlaqələri olan ölkələrin xarici ticarət dövriyyəsindəki qabarıq rəqəmlər də bunu təsdiq edir. Ona görə də inkişaf etməkdə olan ölkələrdə həyata keçirilən xarici iqtisadi əlaqələr məhz bu istiqamətdə formalaşaraq onların dünya bazarındakı yerinin möhkəmləndirilməsinə yönəldilir. Ümumilikdə baxdıqda isə xarici iqtisadi əlaqələr ayrı-ayrı ölkələrin milli iqtisadiyyatının qlobal iqtisadi məkana inteqrasiyası yolunda əsas şərtdir. Bu baxımdan dünya ölkələri öz əhalisinin ümumi rifah halını yüksəltmək üçün beynəlxalq əmək bölgüsünün üstünlüklərindən maksimum yararlanmağa, bunun üçün xarici iqtisadi əlaqələrin yaradılmasına çalışırlar. Eyni zamanda nəzərə alaq ki, qarşılıqlı mənfəət əsasında idxal-ixrac əməliyyatlarının aparılması beynəlxalq bazarın canlandırılmasına səbəb olur ki, bu da cəmiyyətin ümumi inkişafına öz töhfəsini verir.

Naxçıvan Muxtar Respublikasında da xarici iqtisadi əlaqələrin inkişafı daim aktual olub. Bu sahədə ilk addımlar xalqımızın ümummilli lideri Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrdə atılıb. Belə ki, qonşu İran İslam və Türkiyə respublikaları ilə yaradılmış hərtərəfli əlaqələr iqtisadi sahədə də öz uğurlu nəticələrini göstərib. Xüsusilə muxtar respublikanın blokada vəziyyətinə salınması bir çox iqtisadi çətinliklərin yaranmasına vəsilə olub. Bu vəziyyətdən də çıxış yolu kimi adıçəkilən dövlətlərlə iqtisadi əlaqələrin qurulması böyük rol oynayıb. Doğrudur, bu iqtisadi əlaqələr ilk illərdə, əsasən, idxal məhsulları üzərində qurulsa da, sonrakı dövrlərdə muxtar respublikada milli iqtisadiyyatın inkişaf etdirilməsi istiqamətində həyata keçirilən tədbirlər yerli məhsulların aparılan əməliyyatlarda daha çox paya sahib olması ilə nəticələnib. Son illərdə isə bu əlaqələr daha da inkişaf edərək özünün yeni mərhələsinə qədəm qoyub.

Ötən dövrdə muxtar respublika iqtisadiyyatının dinamik inkişafı digər sahələrdə olduğu kimi, xarici iqtisadi əlaqələrin genişləndirilməsinə də öz təsirini göstərib. Belə ki, hazırda Türkiyə və İranla yanaşı, Rusiya, Gürcüstan, Ukrayna, Litva, Birləşmiş Ərəb Əmirlikləri və digər ölkələrə də Naxçıvandan məhsullar ixrac olunur. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, 2017-ci ilin yanvar-avqust aylarında muxtar respublikada 304 milyon 838 min 500 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınıb. İxracın dəyəri son bir il ərzində 1,2 faiz artaraq 284 milyon 341 min 600 ABŞ dolları, idxalın dəyəri 27,1 faiz azalaraq 20 milyon 496 min 900 ABŞ dolları təşkil edib. Nəticədə, 263 milyon 844 min 700 ABŞ dolları dəyərində müsbət saldo yaranıb.

İqtisadiyyatın inkişafı müvafiq olaraq əhali gəlirlərinin də artmasına təsir edib. Belə ki, bəhs edilən dövrdə muxtar respublikada əhalinin gəlirləri 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz artaraq 1 milyard 189 milyon 760 min 200 manat, onun hər bir nəfərə düşən məbləği isə 0,2 faiz artaraq 2642,2 manat təşkil edib. Bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı isə 414,3 manat təşkil edib. Bu göstərici də 2016-cı ilin yanvar-avqust ayları ilə müqayisədə 1,1 faiz artıb.

Göründüyü kimi, muxtar respublika iqtisadiyyatının davamlı inkişafı təkcə xarici iqtisadi əlaqələrin və əhalinin həyat səviyyəsinin yüksəlməsi ilə deyil, həm də dünya iqtisadiyyatına sürətli inteqrasiyasının səciyyələndirib. Bu isə Naxçıvan Muxtar Respublikasının etibarlı tərəfdaş və dost kimi özünü təsdiq etməsindən qaynaqlanır.

✍ Səbuhi HƏSƏNOV

## Sahibkarların iştirakı ilə maarifləndirici tədbir

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində “Sahibkarlığın inkişafı və məşğulluğun artırılması” mövzusunda keçirilən tədbiri giriş sözü ilə xidmətin rəis müavini Elnur Məmmədov açaraq muxtar respublikada fəaliyyət göstərən sahibkarların əmək miqrasiyası ilə bağlı qanunvericiliyin tələblərinə əməl etməsinin vacibliyini diqqətə çatdırıb.***



Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin inspektoru Samir Sadiqovun, şöbə rəisi Zakir Məmmədovun, İqtisadiyyat Nazirliyinin şöbə müdiri Mircavid Tağızadənin, Dövlət Məşğulluq Xidmətinin sektor müdiri Elmar Eyvazovun, sahibkar Yusif Quliyevin çıxışları olub. Çıxışlarda yerli əmək ehtiyatları hesabına tutulmayan boş iş yerlərinin əcnəbi işçi qüvvəsi tərəfindən ödənilməsinin qaydaları və şərtləri, məşğulluğun təmin olunmasında sahibkarlığın rolu, əmək ehtiyatlarından səmərəli istifadə və peşəkar kadrların hazırlanmasında Dövlət Məşğulluq Xidmətinin üzərinə düşən vəzifələr, miqrasiya sahəsində qanunvericiliyin tələblərinin pozulmasına görə məsuliyyət haqqında söhbət açılıb. Bundan başqa, çıxış edənlər miqrasiya sahəsində ölkəmizdə, eləcə də muxtar respublikamızda həyata keçirilən kompleks tədbirlərdən, əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyətindən, onların ölkə ərazisində müvəqqəti olma müddətlərinin uzadılmasından, müvəqqəti və daimi yaşamaq üçün icazələrin verilməsindən bəhs ediblər.

Tədbirdə iştirakçılara ölkə ərazisində haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə işəgötürənlər tərəfindən fərdi icazələrin alınması və müddətlərinin uzadılması, onların yaşayış yerləri üzrə qeydiyyata alınması prosedurları, miqrasiya sahəsində mövcud qanunvericiliyin tələblərinin pozulmasına görə məsuliyyət, həmçinin miqrasiya ilə bağlı digər məsələləri tənzimləyən qanunvericilik aktları barədə ətraflı məlumat verilib.

Mövzu ilə bağlı slaydların nümayiş etdirildiyi tədbirdə müxtəlif məsələlər ətrafında fikir mübadiləsi aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

✍ Nail ƏSGƏROV

## Naxçıvan şəhərində quruculuq işləri davam etdirilir

*Cari ilin ötən dövrü ərzində də Naxçıvan şəhərinin bir neçə ünvanında tikinti-quruculuq tədbirlərinə başlanılıb, yeni-yeni obyektlər istifadəyə verilib. Hazırda muxtar respublika paytaxtında təhsil, səhiyyə və mədəniyyət infrastrukturunun inkişafı, habelə yeni inzibati və yaşayış binalarının tikintisi, eləcə də mövcud olanların yenidən qurulması işləri davam etdirilir.*





Qeyd edək ki, əhalinin mənzil şəraitinin yaxşılaşdırılması sahəsində həyata keçirilən tədbirlər üç mərhələdə aparılır. İlk növbədə, qayğıya ehtiyacı olan vətəndaşlar mənzil və fərdi yaşayış evləri ilə təmin olunurlar. İkinci mərhələdə mövcud yaşayış binaları yenidən qurularaq sakinlərin istifadəsinə verilir. Üçüncü mərhələdə isə qəzalı vəziyyətdə olan yaşayış binaları sökülərək yerində daha müasir yaşayış binaları tikilir. Həyata keçirilən bu tədbirlər dövlətimizin vətəndaşlara göstərdiyi qayğının parlaq ifadəsidir.

Naxçıvan şəhərinin Nizami küçəsi 36 ünvanında yerləşən 5 mərtəbədən ibarət 50 mənzilli binada əsaslı təmir işlərini Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Naxçıvan Şəhər İdarəsinin kollektivi həyata keçirir. Obyektin iş icraçısı Elnur Adıgözəlovun bildirdiyinə görə, burada işlərə avqust ayında başlanılıb. İlkin mərhələdə binanın təməl hissəsində dəmir-beton konstruksiyalarla möhkəmləndirilmə işləri aparılıb, binanın girişinə xələl gətirən hissələr və fasadın köhnə suvağı sökülüb. Görülən işlər çərçivəsində bina dörd bir tərəfdən beton sütunlarla möhkəmləndiriləcək, şifer və pəncərələr dəyişdiriləcək, binanın fasadı milli arxitektura ənənələri əsasında yenidən dizayn ediləcəkdir.

Muxtar respublikada səhiyyə quruculuğu tədbirləri bu gün də davam etdirilir. Hazırda Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında yenidənqurma işləri aparılır. Ötən müddətdə binanın fasadı milli ornamentlərdən istifadə olunmaqla üzlənib, dam örtüyü yenilənib, interyeri müasir üslubda dizayn edilib, bina dəmir-beton konstruksiyalarla möhkəmləndirilib. Xəstəxana binasının girişi tağşəkilli elementlərlə zənginləşdirilərək yeni görkəmə salınıb. Səhiyyə ocağının həyətində isə qazanxana tikilib. Yenidənqurma işləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 120 illik yubileyinin keçirilməsi haqqında” 2016-cı il 18 noyabr tarixli Sərəncamının icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasında Tədbirlər Planına uyğun aparılır.

✍ Səbuhi HÜSEYNOV



27 sentyabr Turizm İşçiləri Günüdür

# Naxçıvanda turizmin inkişafı üçün davamlı tədbirlər görülür

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2016-cı il 1 sentyabr tarixli Sərəncamına əsasən sentyabrın 27-si ölkəmizdə "Turizm İşçiləri Günü" peşə bayramı kimi qeyd olunur.***

Müasir dünyada turizm sənayesi ən dinamik inkişaf edən və gəlirli sahələrdən biridir. Azərbaycanda turizmin inkişafı xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizdə turizmin inkişafı, turizm və ekskursiyaların coğrafiyasının genişlənməsi 1970-1980-ci illərə aid edilir. Bu, ümummilli lider Heydər Əliyevin həmin sahəyə bilavasitə diqqəti və qayğısı nəticəsində mümkün olmuşdur. Məhz bu illərdə Azərbaycanda turizm təşkilatları və ekskursiya bazalarının geniş şəbəkəsi yaradılmış, müasir mehmanxanalar, ictimai əyləncə obyektləri inşa olunmuşdur. Müstəqillik illərində də ulu öndər bu sahənin inkişafını diqqətdə saxlamış, dövlət turizm siyasətinin tənzimlənməsi sahəsində mühüm hüquqi baza yaradılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev turizmin inkişafını qeyri-neft sektorunun əsas istiqamətlərindən biri elan edib. Ölkəmizin turizm potensialının beynəlxalq aləmdə tanıdılması, habelə turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi sahəsində məqsədyönlü tədbirlər həyata keçirilir. Ölkə başçısının imzaladığı sərəncamlar, qəbul edilən dövlət proqramlarının uğurlu icrası Azərbaycanı həm də dünyada turizmin inkişaf etdiyi ölkəyə çevirmişdir. "2009-2018-ci illərdə Azərbaycan Respublikasında kurortların inkişafı üzrə Dövlət Proqramı"nın qəbul olunması turizm-kurort sahələrinin inkişafına hesablanmış mühüm addımdır. Ölkəmiz son illər bir çox mədəniyyət, musiqi, idman, turizm və digər sahələr üzrə beynəlxalq tədbirlərə, o cümlədən ənənə halını almış Dünya Mədəniyyətlərarası Dialoq və Bakı Beynəlxalq Humanitar forumlarına layiqincə ev sahibliyi edir. Eyni zamanda Bakıda böyük uğurla keçirilən I Avropa Oyunları, BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu, Avropa Qran-pri yarışı, IV İslam Həmrəyliyi Oyunları ölkəmizin turizm potensialının təbliğində mühüm rol oynamışdır.

Zəngin tarixi və mədəni irsi, mineral su bulaqları, nadir təbiət abidəsi olan Duzdağ, qədim memarlıq abidələri və özünəməxsus mətbəxi, sabitlik və müasir infrastruktura malik olan yaşayış məntəqələri Naxçıvanda turizmin inkişafını şərtləndirən əsas amillərdir. Muxtar respublikada turizmin ekoloji, ziyarət, müalicə, dağçılıq və başqa növlərinin inkişafı üçün böyük potensial vardır. Bərəkətli torpaq, saf su, təmiz hava, zəngin dərman bitkiləri, bol günəş – bütün bunlar Naxçıvanda ekoloji turizmin inkişafı üçün geniş imkanlar açır.

Bu gün muxtar respublikamızda 1 milli park, 3 yasaqlıq, 1 qoruq fəaliyyət göstərir. Muxtar respublika ərazisinin 27 faizi ekoloji tarazlığın qorunması üçün xüsusi mühafizə altındadır. Muxtar respublikada gedən sosial-iqtisadi inkişaf kənd yaşıl turizminin inkişafı üçün də geniş potensialın olduğunu göstərir. Qədim diyarın Biçənək, Kükü, Nursu, Keçili, Nəsirvaz, Bist, Tivi, Şahbulaq, Gümüşlü, Ərəfsə və başqa yaşayış məntəqələrində kənd yaşıl turizmi inkişaf etdirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı nəticəsində son illər mədəni irsimizin tanıdılması, müalicə mərkəzlərinin yenidən qurulması, beynəlxalq elmi tədbirlərin və idman yarışlarının keçirilməsi, həyata keçirilən abadlıq-quruculuq işləri turizmin inkişafına əsaslı təsir etmiş, muxtar respublikaya gələn turistlərin sayının artmasına səbəb olmuşdur. Turizmin inkişafı üçün görülən tədbirlər kimi tarix və mədəniyyət abidələrinin qorunması, tədqiqi və təbliği ilə bərabər, uzaq əsrlərin yaddaşını bu günə daşıyan maddi-mədəniyyət incilərinin təmiri və bərpası işini xüsusi qeyd etmək lazımdır. Son illər 60-dan çox tarix və mədəniyyət abidəsi təmir və bərpa olunmuşdur. Bütün bu işlər mədəni irsin qorunması ilə bərabər, turizm imkanlarını da genişləndirir. Son illər Möminə xatın türbəsi konservasiya edilmiş, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksində yenidənqurma aparılmış, Yusif Küseyiroğlu və Nuh türbələri, imamzadələr, muxtar respublika ərazisindəki buzxanalar, Naxçıvan şəhərindəki "Came" məscidi, Zaviyə mədrəsəsi, İsmayılxan hamamı, Naxçıvanqala, Xan sarayı, Culfa rayonundakı Xanəgah Abidə Kompleksi, Əlincəqala, Gülüstan türbəsi, Ordubad rayonundakı Aza körpüsü, Qeysəriyyə və digər tarixi abidələr əsaslı təmir və bərpa olunmuşdur. Ötən il Azərbaycan xalqının əyilməzlik rəmzi olan Əlincəqalada, Azərbaycan memarlığının əvəzsiz nümunələrindən olan Gülüstan türbəsində, Şərur rayonunun Xanlıqlar kəndindəki Parçı imamzadəsində bərpa işləri yüksək səviyyədə başa çatmışdır. Hazırda XII-XIV əsrlərə aid Qarabağlar Türbə Kompleksinin, Şərur rayonunun Yengicə kəndində XVIII-XIX əsrlərə aid hamamın, Babək rayonunun Nehrəm kəndində XVIII əsrə aid imamzadənin təmir və bərpası davam etdirilir. Bərpaolunan hər bir tarix və mədəniyyət abidəsi mədəni irsimizi təbliğ etməklə yanaşı, həm də muxtar respublikanın turizm potensialının artmasına hesablanıb.

Bu gün muxtar respublikada 21 mehmanxana və mehmanxanatipli müəssisə, Naxçıvan-Qarabağlar, Naxçıvan-Əshabi-Kəhf, Naxçıvan-Əlincə qalası, Naxçıvan-Ordubad, Naxçıvan-Batabat, Naxçıvan-Gülüstan turizm marşrutları fəaliyyət göstərir. Muxtar respublikamızın bütün bölgələrini əhatə edən müasir infrastrukturun qurulması, xidmətin yüksəldilməsi də turizmin inkişafını şərtləndirən amillərdəndir. 2013-cü ildə Şahbuz rayonunda Ağbulaq İstirahət Mərkəzinin istifadəyə verilməsi də bu sahədə həyata keçirilən tədbirlərin mühüm tərkib hissəsidir.

Qədim diyarımızda müalicə turizminin inkişafı üçün də geniş imkanlar mövcuddur. Duzdağ Fizioterapiya Mərkəzi tənəffüs yolları xəstəlikləri üçün nadir müalicəvi yerdir. Buraya hər il müxtəlif ölkələrdən yüzlərlə insanın müalicəyə gəlməsi turizmin bu sahəsi üçün imkanların geniş olduğunu sübut edir. Dünyanın az ölkəsində bu tipli müalicə mərkəzinin olması Duzdağın əhəmiyyətini daha da artırır. Culfa rayonundakı Darıdağ Arsenli Su Müalicəxanası da müalicə turizminin inkişafında əhəmiyyətli rola malikdir. 2005-ci ildə müasir tələblərə uyğun qurulan bu təbii müalicə müəssisəsinə gələnlərin sayı ilbəil artır.

Başqa sahələr kimi, turizm sahəsində də ixtisaslı kadrların hazırlanması mühüm məsələlərdəndir. Bu gün Naxçıvan Dövlət Universitetində və "Naxçıvan" Universitetində Turizm və otelçilik ixtisası üzrə kadrlar hazırlanır. Naxçıvan Muxtar Respublikası beynəlxalq və daxili turizm sərgilərində müntəzəm iştirak edir. Naxçıvan Dövlət Universitetinin və "Naxçıvan" Universitetinin Turizm və otelçilik ixtisası üzrə təhsil alan tələbələri qədim diyarımızın mədəniyyət və turizm obyektlərində olur, təcrübə keçirlər. Onların muxtar respublikanın təbiət və tarixi abidələrinə ekskursiyalarının təşkili də diqqətdə saxlanılır.

Turistlər həm də informasiya daşıyıcısıdırlar. Turist səfər etdiyi ölkənin coğrafiyası, tarixi, mədəniyyəti, mətbəxi, qonaqpərvərliyi ilə bağlı məlumatları öz ölkəsinə aparmaqla, bir növ tarixi yerlərin təbliğatçısına çevrilir. Naxçıvan şəhərindəki XVII əsrə aid Zaviyə-Mədrəsə binasında yerləşən Naxçıvan Turizm İnformasiya Mərkəzi muxtar respublikanın turizm potensialının təbliği sahəsində səmərəli fəaliyyət göstərir. Bu gün mərkəz internet resurslarından səmərəli istifadə edərək muxtar respublikanın turizm potensialının tanıdılması istiqamətində işlərini davam etdirir.

Turizmin inkişafı yüksək səviyyədə qurulan infrastrukturla bağlı olduğu kimi, həm də sabitliklə bağlıdır. Bu iki amilin muxtar respublikamızda mövcudluğu, qədim diyarımızın cinayətsiz region kimi tanınması turistlərin respublikaya gəlməsi üçün daha bir üstünlük yaradır. Naxçıvanın bu illərdə beynəlxalq tədbirlərə, idman yarışlarına ev sahibliyi etməsi təcrübəsi də vardır. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunması da turizm imkanlarımızı nümayiş etdirmək baxımından əhəmiyyətli rol oynayacaqdır. Bu ilin 8 ayında muxtar respublikamıza 243 mindən çox turist gəlmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,7 faiz çoxdur.

Ötən il martın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində turizmin inkişafı ilə bağlı keçirilən müşavirədə verilən tapşırıqların uğurlu icrası da turizmin inkişafında əhəmiyyətli dönüş yaratmaqdadır.











Bu sahəyə diqqət və qayğı göstərən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Müasir dünyada turizm sektoru iqtisadi cəhətdən ən gəlirli və perspektivli sahələrdən biridir. Zəngin mədəni-tarixi irsə və əlverişli şəraitə malik olan Naxçıvan Muxtar Respublikasında turizmin inkişafı üçün geniş imkanlar mövcuddur. Hazırda muxtar respublikada iqtisadi-sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür".***

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

## Əməkdar rəssamın yeni fərdi sərgisi təşkil edilib



Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Azərbaycan Respublikasının Əməkdar rəssamı, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyevanın “Portal” adlı yeni fərdi sərgisi açılıb.

Sərgini giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvü, sənətşünaslıq üzrə fəlsəfə doktoru Nizami Alıyev açaraq rəssamın yaradıcılıq yoluna nəzər salıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova çıxış edərək bildirib ki, rəssamın zəngin yaradıcılığı rənglərin dili ilə yazılmış bədii həqiqətlər məcmusuna bənzəyir. İldən-ilə rəssamın palitrasında yer almış rənglərin işığı artdıqca, yaradıcı təcrübəsi çoxaldıqca bu dünya ona daha sirli-soraqlı, daha maraqlı görünüb. Bu da rəssama mövzu və süjetlərin alt qatına nüfuz etməyə, orada gizlənən mənəvi-fəlsəfi qatı aşkarlamağa imkan verib. Odur ki, ildən-ilə ərsəyə gətirdiyi əsərlərin qarşısında tamaşaçı seyrçi kimi yox, müsahib kimi dayanır, onunla dialoqa girir.

Vurğulanıb ki, illərdən bəri yaşadığı məkanı layiqincə təmsil edən rəssama dövlətimiz tərəfindən göstərilən böyük diqqət və qayğı onun yüksək uğurlarına yol açıb. Əminliklə demək olar ki, yaradıcılığının məcmusu kimi dəyərləndirilən növbəti sərgidə nümayiş etdirilən əsərlər də böyük tamaşaçı marağına səbəb olacaqdır.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva növbəti sərginin təşkilini onun sənətinə göstərilən dövlət qayğısı kimi dəyərləndirib.

Sonra sərgiyə gələnlər burada nümayiş etdirilən əsərlərlə tanış olublar. Sərgidə rəssamın müxtəlif janrlarda işlənmiş 170-ə yaxın əsəri nümayiş etdirilir.

✍ **Nail ƏSGƏROV**

## Baba Nemətullah Naxçıvaninin irsi ilə bağlı tədqiqatlar aparılacaq

***AMEA Naxçıvan Bölməsində təsəvvüf alimi Baba Nemətullah Naxçıvaninin həyat və yaradıcılığına həsr olunan tədbir keçirilib.***

Tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev tarixən Şərqin ticarət, sənətkarlıq, elm və mədəniyyət mərkəzi olan Naxçıvanın görkəmli yetirmələri ilə də tanındığını deyib. Azərbaycanın təsəvvüf alimləri arasında xüsusi yeri olan Baba Nemətullah Naxçıvaninin həyat və yaradıcılığı barədə məlumat verən İsmayıl Hacıyev onun “Qurani-Kərim”i təsəvvüf üslubunda şərh edən ilk alim kimi tarixə düşdüyünü diqqətə çatdırıb.

Sonra akademik İsmayıl Hacıyev bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya, İncəsənət, Dil və Ədəbiyyat institutlarının və Əlyazmalar Fondunun elmi əməkdaşlarına Türkiyə və İranın arxiv, muzey və kitabxanalarında sufi alimin irsi ilə bağlı tədqiqatlar aparmalarına dair tapşırıqlarını verib.

Tədbirdə İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsi tərəfindən “Taleyi və sənəti” layihəsi çərçivəsində hər il işıq üzü görən məqalələr toplusunun 2018-ci il üçün olan növbəti sayca 12-ci nəşrinin Baba Nemətullah Naxçıvaniyə həsr edilməsi barədə qərar verilib.

*Qeyd edək ki, həyatının çoxunu Naxçıvanda keçirən alim İranda və Türkiyədə yaşayıb. O, təsəvvüf və təfsir sahəsində əsərlərini də burada qələmə alıb.*

**AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi**

## Naxçıvan Dövlət Musiqili Dram Teatrının 135-ci mövsümünün açılışı olub

*Sentyabrın 26-da Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, dramaturq Əli Əmirlinin “Onun iki qabırğası” ikihissəli komediyası əsasında hazırlanmış tamaşa ilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı 135-ci teatr mövsümünü açıb.*



Teatrın direktoru, Xalq artisti Rza Xudiyev bu sənət ocağının keçdiyi çətin və şərəfli inkişaf yolundan danışıb. Qeyd edib ki, bu gün teatrlarımıza diqqət və qayğının muxtar respublikamızda fəaliyyət göstərən sənət ocaqlarının timsalında aydın görmək mümkündür. Muxtar respublikada teatr sənətinin davamlı inkişafı təmin edilib, sənət ocaqlarının maddi-texniki bazasının möhkəmləndirilməsi üçün ardıcıl tədbirlər həyata keçirilib.

Vurğulanıb ki, 2008-ci ildə Naxçıvan Dövlət Musiqili Dram Teatrının 125 illiyi yüksək səviyyədə qeyd edilib. Muxtar respublikanın teatr kollektivlərinin əməyi də dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilib, səmərəli fəaliyyətlərinə görə yaradıcı heyət fəxri adlara, Prezident təqaüdünə və mükafatlara layiq görülüb.

Tanınmış dramaturqun “Onun iki qabırğası” pyesində keçid dövrünə xas olan ailə dramı əks etdirilir. Quruluşçu rejissor, Azərbaycan Respublikasının Xalq artisti Kamran Quliyev tamaşada kiçik aktyor kollektivi ilə maraqlı və dinamik səhnə əsəri yaratmağa müvəffəq olub və müəllifin ideyasını aça bilib.

Tamaşanın quruluşçu rəssamı, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Əbülfəz Axundov, musiqi tərtibatçısı, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İmamqulu Əhmədovdur.

Tamaşa teatrsevərlər tərəfindən alqışlarla qarşılanıb.

**Əli RZAYEV**

## Muxtar respublikada etibarlı keyfiyyət infrastrukturu yaradılıb

***Müasir dövr, xüsusən qloballaşma və bazar münasibətləri şəraitində keyfiyyət problemi hər yerdə özünü qabarıq şəkildə göstərməkdədir. İnkişaf etməkdə olan ölkə kimi Azərbaycanda keyfiyyət infrastrukturunun qarşısında da təkcə istehsalçı və istehlakçı mənafelərinin deyil, bütövlükdə, ölkənin iqtisadi maraqlarının qorunması kimi mühüm vəzifə qoyulub. Muxtar respublikamızda da bu sahəyə nəzarət üzrə fəaliyyət göstərən Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi yaradılmış şəraitdən maksimum istifadə etməklə Naxçıvan Muxtar Respublikasının iqtisadi və sosial sahədəki uğurlarının möhkəmləndirilməsinə öz töhfəsini verir.***

Müasir Azərbaycan Respublikasının iqtisadiyyatı özünün çoxşaxəliliyi və regional inkişaf prioritetləri ilə seçilir. Eyni zamanda həyata keçirilən iqtisadi siyasət vətəndaşların rifah halının yüksəldilməsi ilə yanaşı, Azərbaycanda istehsal olunan mal və göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi ilə ölkəmizin müsbət imicə qovuşdurulması məqsədi güdür. Bu da, öz növbəsində, keyfiyyət amilinə diqqətin daha da artırılmasını tələb edir. Belə ki, müasir dünyada keyfiyyət amili ön planda duran cəhətlərdəndir. Hər bir vətəndaş istehlak etdiyi məhsulun növünü, çeşidini seçməklə yanaşı, onun keyfiyyətinə də xüsusi diqqət yetirir. Müasir dövrdə bu ənənə genişləndikcə keyfiyyət amili də istehsalçıların əsas qayğısına, əhali tələbatlarının təmin edilməsinin həlledici faktoruna çevrilmişdir.

Ölkəmizdə istehsalın səmərəliliyi və rəqabət mühitinin yaxşılaşdırılması istiqamətində aparılan işlər, yeni açılan müəssisələrdə beynəlxalq standartların tətbiq edilməsi ixrac imkanlarımızın genişlənməsinə və rəqabətin gücləndirilməsinə səbəb olub. Xarici ticarət əlaqələrinin inkişafı, istehlakçıların həyat və sağlamlıqlarının qorunması keyfiyyət infrastrukturunun əhəmiyyətini bir daha artırmaqdadır. Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi bu sahəyə xüsusi diqqət yetirməklə əhalinin keyfiyyətli məhsullarla təminatını başlıca prinsip hesab edir.

Komitə standartlaşdırma sahəsində fəaliyyətini müasir tələblər əsasında qurmaqla muxtar respublikada yüksəkkeyfiyyətli məhsullar istehsal edən emal və sənaye müəssisələrinin fəaliyyətinə nəzarət funksiyasını yerinə yetirir. Muxtar respublikada istehsal olunan məhsulların yüksəkkeyfiyyətli və rəqabətqabiliyyətli olması, görülən işlərin və göstərilən xidmətlərin müasir standartlara cavab verməsi bu qurum qarşısında duran prioritet vəzifələrdəndir. Bu da standartlaşdırma sahəsində fəaliyyətin yeni müstəvidə qurulmasını tələb edir.

Muxtar respublikada keyfiyyətə nəzarət işinin və bu sahədə texniki tənzimləmə sisteminin müasir tələblərə uyğunlaşdırılmasının həyata keçirilməsində “Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrası əsas istiqamət kimi qəbul edilib. Proqram xarakterli idarəetmənin təşkili nəticəsində muxtar respublikada qida təhlükəsizliyinin təmin olunmasına, geni modifikasiya olunmuş məhsulların dövriyyəsinə, uşaq qidalarının keyfiyyətinə, yeyinti məhsullarının istehsalı, emalı, daşınması və saxlanması vəziyyətinə, ərzaq məhsullarının əmtəə nişanlarının saxtalaşdırılması hallarına, meyvə-tərəvəz və konserv məhsullarının keyfiyyətinə, ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı üçün istifadəsinə icazə verilən qeyri-təbii vasitələrin tətbiqinə, xidmət sahələrində standartlardan istifadənin səviyyəsinə və akkreditasiya sisteminə daxil olan laboratoriyaların ümumi fəaliyyətinə nəzarət məqsədilə davamlı monitorinqlər təşkil olunmaqdadır.

Eyni zamanda Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi metrologiya sahəsi üzrə də dövlət siyasətini uğurla davam etdirməkdədir. Ölçmələrin düzgün nəticələri məhsulun keyfiyyətinə və təhlükəsizliyinə, tibbi diaqnostikanın səmərəliliyinə təminat verir, ədalətli ticarətə və ətraf mühitin təmizliyinə imkan yaradır. Buna görə də metroloji normalara və qaydalara əməl olunması işləri sürətləndirilmişdir. Komitənin Metrologiya şöbəsi qanunvericilik bazasını və beynəlxalq standartları əsas götürərək ölçmə vasitələrinin normativ göstəricilərinin standarta uyğunluğunu nəzarətdə saxlamaqdadır.

Ölkəmizdə qeyri-neft sektorunun inkişafına yönəldilən məqsədyönlü iqtisadi siyasət insan kapitalına hesablanan innovativ iqtisadiyyatın inkişafına xidmət etməkdədir. Bu baxımdan iqtisadi faktor kimi əqli mülkiyyətin qorunması da Naxçıvan Muxtar Respublikasında həyata keçirilən uğurlu iqtisadi siyasətin əsas prioritetlərindən biridir.

İqtisadi siyasətin həyata keçirilməsində intellektual kapitaldan istifadənin genişləndirilməsi və texnoloji inkişafın stimullaşdırılması, kontrafakt malların dövriyyəsinə qarşı mübarizənin genişləndirilməsinə diqqət artırılır. Bu istiqamətdə komitə tərəfindən əqli mülkiyyətin mühafizəsinin formalaşdırılması və regional inkişafa uyğunlaşdırılaraq sənayedə tətbiqinə ciddi fikir verilir. Komitə sənaye mülkiyyəti obyektlərinin mühafizəsi üçün əqli mülkiyyətin qorunması sahəsində mütəmadi tədbirlər həyata keçirir, patent sahəsinin inkişafını diqqət mərkəzində saxlayır. Patent sistemi vasitəsilə sənaye mülkiyyəti obyektlərinə dair iddia sənədlərinin qəbulu və ekspertizası həyata keçirilir, dövlət reyestri aparılır, bu sahədə hüquqların qorunması və beynəlxalq sistemlərə inteqrasiya təmin olunur.

Muxtar respublikamızda keyfiyyət infrastrukturu özünün inkişaf mərhələsindədir. Bu yaxınlarda komitənin maddi-texniki bazasının yaxşılaşdırılması məqsədilə yeni inzibati bina da istifadəyə verilib. Zirzəmi ilə birlikdə 5 mərtəbədən ibarət olan binada 81 əməkdaşın iş şəraitinin yaxşılaşdırılması üçün hərtərəfli imkanlar yaradılıb. İnzibati binada müasir avadanlıqlarla təchiz olunmuş iş otaqları, iclas zalı, kitabxana, standart və patent fondu, laboratoriya və digər zəruri otaqlar vardır. Komitənin standartlar fondunda, ümumilikdə, 19579, o cümlədən dövlət və dövlətlərarası standart, sahə standartı, texniki şərt, təsnifat, rəhbəredici sənəd, beynəlxalq standart, Avropa standartı, patent fondunda isə əmtəə nişanları, coğrafi göstəricilər, ixtiralar, faydalı modellər və sənaye nümunələrinə dair 1094 mühafizə sənədi saxlanılmaqdadır. Müasir elektron avadanlıqların tətbiqi əsasında işdə operativliyin təmin edilməsi məqsədilə yeni əsas və ehtiyat server, 12 dəst kompüter, 14 çap qurğusu, 2 ədəd videoproyektor, 1 ədəd elektron lövhə və müxtəliftipli ölçmə-sınaq avadanlıqları alınaraq komitə əməkdaşlarının istifadəsinə verilib. Binada ərzaq məhsullarının sertifikatlaşdırılması üzrə nümunə qəbulu və saxlama otaqları yaradılıb, 6 yeni soyuducu və müasirtipli testerlər alınıb. Təhlükəsizlik normalarına uyğun olaraq binadan 25 metr məsafədə məişət qaz avadanlıqlarının sınaq laboratoriyası yaradılıb, yeni qaz analizatorları və qaz detektorları quraşdırılıb.



Komitədə xidməti işin səmərəliliyini və operativliyini yüksəltmək üçün yeni Elektron Sənəd Dövriyyəsi Sistemi və daxili intranet şəbəkəsi qurulub.

Hazırda komitə tərəfindən muxtar respublikanın 531 istehsal müəssisəsində, 125 ictimai iaşə və xidmət sahəsində, 323 qadın və kişi salonunda, 1068 ticarət obyektində, təhsil və səhiyyə müəssisələrinin 149 yeməkxana və bufetində davamlı olaraq maarifləndirmə xarakterli monitorinqlər icra olunur və standartların tələbləri çatdırılır. İstehsal və idxal olunan məhsulların sertifikatlaşdırılması prosesi, patentlərin beynəlxalq mühafizəsi fəaliyyəti və istehlak bazarında keyfiyyətə nəzarət işi müasir standartların prinsipləri üzrə aparılır.

Komitədə metroloji nəzarət üzrə müasir avadanlıqlarla təchiz olunmuş elektrik, təbii qaz və su sərfi ölçmə vasitələrinin yoxlanılması, təzyiq, temperatur, çəki və həcm ölçmə vasitələrinin kalibrlənməsi üzrə çoxfunksiyalı avadanlıq parkına malik laboratoriya fəaliyyət göstərir.

*İqtisadiyyatın inkişafı üçün əsas şərtlərdən biri keyfiyyət standartlarının tətbiqidir. Bu baxımdan muxtar respublikamızda əhalinin sağlamlığının və istehlakçıların hüquqlarının qorunması, ətraf mühitin mühafizəsi məqsədilə standartlaşdırma sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər mərkəzi icra hakimiyyəti orqanı kimi Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin qarşısında duran əsas vəzifədir.*

✍ **Əli CABBAROV**

***Məlumdur ki, yeniyetmələr olan bəzi ailələrdə valideyn-övlad münasibətlərində narazılıqlar, konfliktlər, aqressiv münasibətin yaranması ehtimalı mövcuddur. Bu cür problemlərin olması valideynin onlara olan münasibətindən asılıdır. Müşahidələrimiz zamanı yeniyetmələrdə bəzi hallarda aqressivliyin artması qeydə alınır. Yeniyetmə aqressivliyini bəzən qrup şəklində də müşahidə edirik. Onlar tərəfindən qrup halında birgə törədilən antisosial hərəkətlər yeniyetmələrin, sözün mənfi mənasında, qrup həmrəyliyi hissini möhkəmləndirir. Bəzən belə hərəkətlər eyforiya vəziyyəti səviyyəsinə çatır ki, yeniyetmələr özləri də bunun səbəbini izah edə bilmirlər.***

# Valideyn-yeniyetmə münasibətlərində təzadlar nədən qaynaqlanır?

Professor Oruc Həsənli deyir ki, aqressiv uşaqlar, bir qayda olaraq, uşaqlar və valideynlər arasında məsafənin böyük olduğu, valideynlərin övladların inkişafı ilə maraqlanmadığı ailələrdə böyüyürlər. Bundan başqa, belə uşaqlar isti münasibət və nəvazişin çatışmadığı, uşaq aqressivliyinə münasibətdə laqeyd olan, səbirli intizam üsulu kimi qayğılı izahatlar əvəzinə zorakı metodların, xüsusilə fiziki cəzaların istifadə olunduğu ailələrdə yetişirlər.

Uşağın düzgün olmayan davranışına valideynlərin reaksiyası valideyn və uşaqlar arasındakı münasibətlərin xarakteri, ailə harmoniyasının və ya disharmoniyasının səviyyəsi, doğma bacı və qardaşlarla münasibətin ölçüsü uşağın ailədə və ondan kənarda aqressiv davranışını müəyyən edən amildir. Bu problemlər onun ətrafdakılarla münasibətinə təsir edir. Əgər uşaqların bir və ya hər iki valideynlə münasibəti pisdirsə (hansı yaş dövrü olmasından asılı olmayaraq), əgər onlar özlərini hər cəhətdən yararsız hesab edir və valideyn dəstəyini duymayırlarsa, ətrafa qarşı aqressiv ola bilərlər. Başqa uşaqlara hücum etmələri də mümkündür. Yaşıdları isə aqressiv olduqları üçün onlarla yoldaşlıqdan imtina edəcəklər.

Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbin psixoloqu Nərgiz Vəliyeva deyir ki, dünya təcrübəsinə görə çətin islah olunan insanlar valideynlərin övladları ilə maraqlanmadığı ailələrdən çıxır. Anasından uşaqlıqda kifayət qədər qayğı görməyən və valideynlərindən lazımi dəstəyi almayan qadınlar tərbiyə metodu kimi cəza tətbiq etməyə və ya qəzəblərini uşaqların üstünə tökməyə meyillidirlər. Aparılan eksperimentlərin nəticələri uşaqların aqressivliyi ilə valideynlərin cavabdehliyi arasındakı özünəməxsus asılılığı göstərir. Tədqiqatçılar belə anaların uşaqlarla necə rəftar etdiklərini müşahidə ediblər. Bir çox analar uşaqları ağlayarkən onu qucağına götürür, ona əl uzadır, digərləri isə aqressiv davranış nümayiş etdirir (məsələn, hər hansı predmeti əlindən alır). Uşaq ağlayarkən və ya anasını ünsiyyətə dəvət edərkən anaları təlaşmadan yaxınlaşan uşaqlardan daha tez reaksiya verən uşaqlar daha aqressiv olurlar. Ümumiyyətlə, bütün tələbatların əsası uşaqlıqda qoyulur. Bu mərhələdə çatışmayan və yaxud valideyn tərəfindən göstərilməyən sevgi, qayğı tələbatı gələcəkdə valideyn-yeniyetmə arasında konfliktə, aqressiyaya səbəb olur. Bağlılıq nəzəriyyəsinə əsasən balaca uşaqlar anaları ilə qarşılıqlı münasibətdə təhlükəsizlik duyğusunu hiss etmələrinə görə fərqlənirlər. Uşaqlıqda münasibətləri düzgün qurulan uşaq – ana tərəfindən etibarlı, möhkəm, dürüst münasibət görən uşaq digər insanlara inanmağa meyillidir, kifayət qədər yaxşı inkişaf etmiş sosial vərdişlərə malikdir. Düzgün qurulmayan münasibətləri olan və ya münasibətləri üzündən narahatçılıq keçirən uşaq özünəqapalı olacaq. Narahat uşaq, ümumiyyətlə, baxıcısından qaçır, belə uşaqlar az danışandırlar, nəzarətə müqavimət göstərirlər. Ətrafdakılara etibar etməyən uşaqlar etibar edən yaşıdlarına nisbətən mübahisələrdə daha çox iştirak edirlər. Sosial öyrənmə prosesi nəinki valideynlərinin uşağa tərbiyəvi təsiri nəticəsində, həmçinin uşağın digər ailə üzvləri ilə də qarşılıqlı təsiri nəticəsində baş verir.

Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbin direktoru Camal Axundov müşahidələrinə əsaslanaraq bildirir ki, cəza vasitəsi kimi əl qaldırmaqdan istifadə olunan ailələrdə ətrafdakılara qarşı aqressivliyə meyilli uşaqlar böyüyür. Onları nizam-intizama cəlb etmək üçün valideynlər, adətən, qışqırmaqdan, döyməkdən və sairdən istifadə edərək aqressiyanın problemin həlli ola bildiyini nümayiş etdirirlər. Adətən, belə valideynlər özləri də fiziki cəzalar tətbiq olunan ailələrdə yetişirlər. Düzdür, uşaqlıqda sərt münasibətlə qarşılaşan uşaqların heç də hamısı çətin islah olunanlar olmur və onların bəziləri yaxşı valideyn kimi özlərini göstərirlər. Ancaq belə yeniyetmələrin 30 faizi sonradan öz təcrübələrindən tanıdıqları "tərbiyə metodunu" öz uşaqlarına da tətbiq edir və onları daha çox cəzalandırırlar. Ailədəki zorakılıq, adətən, növbəti zorakılıqlara yol açır. Uşaqların atasız böyüdüyü ailələrdə zorakılığın səviyyəsinin yüksəlməsi müşahidə olunur.

Natamam ailələrdən çıxan uşaqların sərt münasibətlərin qurbanı olması, məktəbdən, evdən qaçması, qayda pozuntusu törətməsi ehtimalı çoxdur. Xoşbəxt ailələr natamam ailələrdən uşaqlara diqqətin çox olması, nizam-intizamı ilə fərqlənir. Evdən kənarda sosial mühit də, həmçinin nümunə mənbəyi kimi çıxış edir. Əgər kişi ailədə sərt hərəkətlər edərsə, aqressiv davranış üslubu atadan oğula keçir. Uşaqlar aqressiv reaksiya vərdişlərini həm öz təcrübələrində, həm də ətrafdakıların davranışlarını müşahidə edərək mənimsəyirlər.

Ordubad rayon Düylün kənd tam orta məktəbinin psixoloqu Müseyib Həsənovla söhbət zamanı dedi ki, aqressiv yeniyetmədə şüur və özünüdərk etmənin spesifik xüsusiyyətləri vardır. Aqressivliyə meyilli olmayan uşaqların davranışı konfliktdən qaçmaq həvəsinin olması və günahkarlıq hissinin yaranması ilə əlaqədardır. Məsələnin mahiyyəti ondan ibarətdir ki, yeniyetmələrdə özünüdərkin təşəkkülündə ailə münasibətlərinin normallığı, valideynlərin uşaqlarla emosional münasibəti çox zəruridir. Bunun əksi neqativ davranış tərzinin və antisosial hərəkətlərin baş verməsinə səbəb ola bilər. Çünki böyüklər vasitəsilə "ötürülən" hərəkətlərin yeniyetmənin "mən" obrazına digər amillərdən daha çox təsir göstərdiyi məlumdur. Əgər müəllim və valideynlər uşaqları həqiqi şəxsiyyət, öz mövqeyini, özünü və başqalarını dərk edən insan kimi böyütmək istəyirlərsə, onlara şəxsiyyətin müsbət keyfiyyətlərini aşılamalıdırlar.

*Sonda onu da qeyd edək ki, yeniyetmələrdə aqressiv davranış təzahürlərinin aradan qaldırılması, valideynləri ilə olan konfliktlərin səbəbini araşdırmaq üçün zəruri yol və vasitələr çoxdur. Buna görə də öncə aqressiv davranışı yaradan səbəbləri vaxtında araşdırmaq lazımdır. Çünki bunun vaxtında qarşısının alınması onun zərərlərinin aradan qaldırılmasından daha asandır.*

✍ **Səbuhi HÜSEYNOV**

# Hüquqi maarifləndirmə günün tələbidir

***Sual: Nağdsız hesablaşmalar nədir? Və bu hesablaşmaların məqsədi nədən ibarətdir?***

**Cavab:** Ölkəmizdə nağdsız hesablaşmalar "Nağdsız hesablaşmalar haqqında" 16 dekabr 2016-cı il tarixli Qanunla tənzimlənir. Vergi ödəyiciləri tərəfindən vergi ödəyicisi olmayan fiziki şəxslərdən kənd təsərrüfatı məhsullarının istehsalçılarından kənd təsərrüfatı məhsullarının, əlvan və qara metal qırıntılarının, utilizasiya və digər məqsədlər üçün kağız, şüşə və plastik məmulatların və utilizasiya məqsədləri üçün işlənmiş şinlərin nağd qaydada qəbulu nəzərə alınmaqla, ƏDV məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200 min manatdan artıq olan vergi ödəyicilərinə münasibətdə 2017-ci il yanvarın 1-dən, digər vergi ödəyicilərinə münasibətdə isə 2017-ci il aprelin 1-dən qüvvəyə minir.

Nağdsız hesablaşma dedikdə, bir şəxsin bank hesabından digər şəxsin bank hesabına köçürülməklə və ödəniş vasitələri (mobil telefon aparatları, kompüter və digər avadanlıq) ilə həyata keçirilən hesablaşmalar, ödəniş terminalları ilə həyata keçirilən hesablaşmalar və birbaşa nağd qaydada satıcının bank hesabına köçürülməklə həyata keçirilən hesablaşmalar nəzərdə tutulur. Bu hesablaşmaların məqsədi isə ölkə ərazisində mülki dövriyyənin iştirakçıları arasında aparılan əməliyyatların və hesablaşmaların şəffaflığını, istehlakçıların hüquqlarının müdafiəsini təmin etmək, nağd pul hesablaşmalarının nağdsız hesablaşmalarla əvəzlənməsini stimullaşdırmaq, bank sisteminin inkişafını sürətləndirməkdən ibarətdir.

Hər iki tərəf vergi ödəyicisi olan şəxs arasında hesablaşmalar üzrə nağdsız ödəniş yalnız bir şəxsin bank hesabından digər şəxsin bank hesabına köçürülməklə və ödəniş vasitələri (mobil telefon aparatları, kompüter və digər avadanlıq) ilə həyata keçirilən hesablaşmalar formasında aparıla bilər.

Vergi ödəyiciləri tərəfindən vergi ödəyicisi olmayan fiziki şəxslərdən kənd təsərrüfatı məhsullarının istehsalçılarından kənd təsərrüfatı məhsulları, əlvan və qara metal qırıntıları, utilizasiya və digər məqsədlər üçün kağız, şüşə və plastik məmulatlar və utilizasiya məqsədləri üçün işlənmiş şinlər nağd qaydada satın alına bilər. Qeyd olunanlar nəzərə alınmaqla, ƏDV məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200 min manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən təqvim ayı ərzində ümumi məbləği 30 min manatdan, digər vergi ödəyiciləri tərəfindən isə təqvim ayı ərzində ümumi məbləği 15 min manatdan artıq olan hesablaşmalar üzrə ödənişlər yalnız nağdsız qaydada həyata keçirilməlidir.

Qeyd olunanlardan asılı olmayaraq, vergilərin, gömrük rüsumları və yığımlarının, qanunla müəyyən edilmiş inzibati cərimələrin, maliyyə sanksiyalarının və faizlərin, lizinq əməliyyatları üzrə borcların ödənilməsi və kreditlərin verilməsi, "Sığorta fəaliyyəti haqqında" və "İcbari sığorta haqqında" qanunlara müəyyən edilmiş ödənişlər, dövlət orqanlarına, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə, büdcə təşkilatlarına və publik hüquqi şəxslərə ödənilən xidmət haqları və digər yığımlar, əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200 min manatadək olan pərakəndə ticarət, iaşə və xidmət sahəsində fəaliyyət göstərən şəxslər istisna olmaqla, digər şəxslər tərəfindən ödənilən əməkhaqları (o cümlədən işəgötürən tərəfindən ödənilən, qanunvericiliklə müəyyən edilmiş digər ödənişlər), pensiya, təqaüd, maddi yardım, müavinətlər (o cümlədən birdəfəlik müavinətlər), kompensasiyalar və təzminatlar, stasionar telefon xidmətlərinin və kommunal xərclərin ödənilməsi, faizsiz pul vəsaitlərinin (vergi ödəyicisi olmayan şəxslər tərəfindən pul vəsaitlərinin verilməsi halları istisna olmaqla), digər ayırmaların ödənilməsi və qaytarılması, dövlət satınalma müqaviləsi üzrə əldə olunan vəsaitin istifadəsi (xərclənməsi), təhsil haqlarının ödənilməsi, turagentlərə ödəmələr yalnız nağdsız qaydada həyata keçirilir.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi***

*İdman xəbərləri*

# Şəhər birinciliyində qaliblər mükafatlandırılıb



*Naxçıvan şəhər İslam Hümbətov adına Uşaq-gənclər idman məktəbində "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında kiçikyaşlı idmançılar (2007-2009-cu illər) arasında sərbəst güləş üzrə Naxçıvan şəhər birinciliyi keçirilib.*

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov tədbiri açıq elan edərək bildirib ki, bu yarışı keçirməkdə məqsədimiz idmançıları zərərli vərdişlərdən uzaq tutmaq və onları idmana cəlb etməkdən ibarətdir. Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədr müavini Faiq İsgəndərov yarışın keçirilmə qaydaları haqqında idmançılara geniş məlumat verib və onlara uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkil etdiyi birincilikdə 10 çəki dərəcəsi üzrə 50-yə yaxın idmançı öz qüvvəsini sınayıb. Beynəlxalq Güləş Federasiyasının mövcud qaydalarına əsasən keçirilən yarışın yekununa görə Samir Əliyev, Turqay Məmmədli, Məhəmməd İsmayılov, Namiq Əlizadə, Polad Məmmədzadə, Xəzər Abdullayev, Sadiq Məmmədov, Süleyman Məmmədov, Elxan Əhmədli və İlkin Həziyev müvafiq olaraq 20, 23, 26, 29, 32, 35, 38, 47, 53 və 59 kiloqram çəki dərəcələrində bütün rəqiblərini üstələyərək birinciliyin qalibi olublar.

Qalib idmançılara Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları təqdim olunub.

# Voleybol birinciliyində növbəti oyun keçirilib

***Culfa rayon Əbrəqunus kənd tam orta məktəbinin idman zalında rayon Gənclər və İdman İdarəsi ilə Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyasının Culfa rayon bölməsinin birgə təşkil etdiyi kişilər arasında voleybol üzrə rayon birinciliyinin növbəti oyunu keçirilib.***

Rayonun şəhər və kənd komandaları arasında "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında keçirilən görüşdə bu dəfə Saltaq və Kırna kənd komandaları qarşılaşıblar. Qarşılaşmadan əvvəl rayon Gənclər və İdman İdarəsinin əməkdaşı Elçin Cəfərov, Voleybol Federasiyasının rayon bölməsinin nümayəndəsi Sahib Qeybullayev çıxış edərək keçirilən tədbirin mahiyyətindən, idmana göstərilən dövlət qayğısından və voleybol federasiyasının qarşısına qoyulan vəzifələrdən danışıblar. Çıxışlardan sonra oyunun baş hakimi Afrəddin Cəfərov oyunun qaydaları haqqında idmançıları məlumatlandırıb. Gərgin mübarizə şəraitində keçən görüşdə Saltaq kənd komandası 3:0 hesabı ilə qalib gələrək növbəti mərhələyə yüksəlib.

✍ **Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Ədəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 770